# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Naxçıvan Muxtar Respublikasında ipoteka sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 08 avqust tarixli 21-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasında ipoteka sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 08 avqust tarixli 21-VII FR nömrəli Fərmanının (bundan sonra – Fərman) icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan İpoteka Fondu və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları iki aydan gec olmayaraq Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb normativ hüquqi aktlarının və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib bu barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan İpoteka Fondu (bundan sonra - Fond) Fondun nizamnaməsinin layihəsini və nizamnamə kapitalının miqdarı barədə təkliflərini iki həftə müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 14 ” “ avqust ” 2025-ci il

№ 100s